*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 mart 2019-cu il № 20 (2337) Qiyməti 30 qəpik


*Novruz bayramı ərəfəsində Gəncə qarnizonundakı hərbi hissələrdən birində "Ordu gəncləri böyük qüvvədir" kitabının təqdimatı olub. Azərbaycan Gəncləri Gününə həsr edilən respublika toplantısının və Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının materialları əsasında hazırlanan nəşrin təqdimatında zabitlər və gənc əsgərlər iştirak ediblər.*




Layihənin müəllifi, kitabın tərtibçi-redaktoru, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbirdə çıxış edərək bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkəmizin iqtisadi potensialı gündən-günə daha da artır, ordumuzun maddi-texniki bazası möhkəmlənir, şəxsi heyətin döyüş ruhu, peşəkarlığı, vətənpərvərlik hissi yüksəlir, xalqımızın firavan həyat tərzi daha da yaxşılaşır, quruculuq işləri geniş vüsət alıb. Azərbaycanın hər bir vətəndaşı belə bir ölkədə yaşamaqdan və işləməkdən böyük qürur duyur. Respublikamızda gənclər siyasəti artıq dövlət siyasətinin mühüm tərkib hissələrindən birinə çevrilib. Ardıcıl həyata keçirilən bu siyasət nəticəsində gənclərimiz daha parlaq gələcəyə doğru inamla irəliləyirlər.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının və digər fərman və qərarların verdiyi imkanlardan respublikanın bütün gəncləri kimi, ordu gəncləri də bəhrələnir və Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edərək ölkə rəhbərliyinin etimadını doğruldurlar.

Müdafiə Nazirliyinin rəsmisi cari il fevralın 1-də Azərbaycan Gəncləri Günü münasibətilə Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri respublika toplantısını xatırladaraq vurğulayıb ki, bu toplantı tarixi hadisədir. Dövlətimizin başçısı həyatımızın bütün sahələrində qazanılmış uğurları təqdir etdi, gənclərimizin gələcək strateji fəaliyyət proqramına yeni təklif və tövsiyələrini verdi. Ali Baş Komandanın toplantının mötəbər tribunasından Azərbaycan Ordusu və onun qəhrəman döyüşçüləri barədə dediyi qürurverici fikirlər hər bir Vətən əsgərinin böyük qələbəyə, işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına inamını daha da artırdı. Prezidentimizin dediyi kimi, həqiqətən də, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Azərbaycan əsgəri, zabiti Vətən və torpaq uğrunda canından keçməyə hazırdır.

A.Qurbani deyib ki, respublika toplantısı keçirilən günün ertəsi ordu gəncləri nümayəndələrinin respublika paytaxtına toplaşaraq, Azərbaycan Respublikası Prezidentinin hüquqmühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərovun və Müdafiə Nazirliyi rəhbərliyinin bilavasitə iştirakı ilə ümumrespublika toplantısını keçirməsi bütün ölkə gəncləri kimi, Azərbaycan Ordusunda xidmət edən gənclərin də Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi daxili və xarici kursu dəstəkləməsinin və bu siyasətin icrasında daim Ali Baş Komandanın yanında olmalarının təsdiqidir.

(Ardı 4-cü səhifədə)




Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər keçirilir
2-ci səhifədə





Gənclərimizin çağırışaqədərki hazırlığı
6-cı səhifədə





Ön cəbhədə hərbçilərimizlə görüş
7-ci səhifədə





"Milli xörəklərimizə üstünlük veririk"
8-ci səhifədə

# Türkiyənin yeni hərbi attaşesi Azərbaycanın Müdafiə nazirinə təqdim olunub

*Martın 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycanın və Türkiyənin orduları arasında əlaqələrin hazırkı vəziyyəti, əməkdaşlığın inkişaf perspektivləri, regiondakı hərbi-siyasi durum və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

Tərəflər hər iki ölkənin orduları nümayəndələrinin qarşılıqlı səfərlərinin, həmçinin hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini xüsusi qeyd ediblər.

Səfir E.Özoral ölkəsinin Azərbaycana yeni təyin olunan hərbi attaşesi briqada generalı İsmayıl Hakkı Kösealini Müdafiə nazirinə təqdim edib.

General-polkovnik Zakir Həsənov yeni təyin olunan hərbi attaşeni Azərbaycanda fəaliyyətə başlaması münasibəti ilə təbrik edərək ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyəti, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*12 mart 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara və Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Şirvanlı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər keçirilir



Son illər Azərbaycanın ordu quruculuğunda xüsusi diqqət yetirilən məsələlərdən biri də müxtəlif miqyaslı hərbi təlimlərin müntəzəm keçirilməsidir. Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Təlimlər zamanı qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, həmçinin maddi-texniki təminat məsələləri də yoxlanılır. Keçirilən təlimlər şəxsi heyətdə döyüş hazırlığının yüksəldilməsi, vərdişlərin təkmilləşdirilməsi, ağır şəraitdə aparılan müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılmasını təmin edir. Yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə həyata keçirilən təlimlər torpaqlarımızın azad edilməsi naminə şəxsi heyətin döyüş hazırlığının artırılmasına da xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 11-dən 15-dək Müdafiə nazirinin rəhbərliyi altında genişmiqyaslı təlimlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti bildirir ki, təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

Genişmiqyaslı təlimlərin planına əsasən, həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır. Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirir. Təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunur.

Keçirilən genişmiqyaslı təlimin niyyətinə uyğun olaraq Əməliyyat-taktiki raket bölmələri daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edərək təyin edilmiş marşrutlarla marş keçiriblər.

Müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə həyata keçirilən təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

Ölkəmizin təhlükəsizliyinin təminatı baxımından mütəmadi taktiki təlimlərin keçirilməsi mühüm əhəmiyyətə malikdir. Azərbaycan Ordusunun hissə və bölmələrinin çətin relyef şəraitində mümkün təhdidlərə qarşı birgə xidməti-döyüş və əməliyyat-taktiki hərəkətlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən genişmiqyaslı taktiki təlimlər şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə imkan yaradır. Taktiki təlimlər zamanı Azərbaycan Ordusunun bölmələri qarşıya qoyulan vəzifələri tam həcmdə yerinə yetirir, möhkəm intizam, yüksək döyüş qabiliyyəti və əməliyyat şəraitində tapşırıqların həyata keçirilməsi hazırlığını nümayiş etdirir.

Keçirilən təlimlər bir daha onu sübut edir ki, Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünün və təhlükəsizliyinin əsas təminatçısıdır. Eyni zamanda işğal olunmuş torpaqlarda uğurlu döyüş əməliyyatları aparmağa və torpaqlarımızı azad etməyə qadirdir.

**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisinin Bolqarıstana rəsmi səfəri

*Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun Bolqarıstan Respublikasına rəsmi səfəri başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ilk olaraq general-polkovnik N.Sadıkovun rəhbərlik etdiyi nümayəndə heyəti Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib, önünə əklil qoyub.

Sonra general-polkovnik N.Sadıkov Bolqarıstanlı həmkarı general Andrey Botsev ilə görüşüb.

Qonaqları salamlayan general A.Botsev vurğulayıb ki, Bolqarıstan Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycan ilə Bolqarıstan arasında hərbi-texniki əməkdaşlığın daha da inkişafı üçün geniş imkanlar mövcuddur.



Bolqarıstana səfərindən məmnunluğunu bildirən general-polkovnik N.Sadıkov ölkələrimiz arasında hərbi münasibətlərin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində mövcud əməkdaşlığın perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə olunub.

* * *

Bolqarıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov martın 12-də bu ölkənin Baş naziri Boyko Borisov ilə görüşüb.

Azərbaycan-Bolqarıstan dostluq münasibətlərinin inkişafından razılığın bildirildiyi görüşdə müxtəlif strukturlar, o cümlədən Müdafiə nazirlikləri arasında görüşlərin keçirilməsi yüksək qiymətləndirilib. Bunun ölkələrimiz arasında mövcud siyasi, iqtisadi, mədəni əlaqələrin, hərbi sahədə əməkdaşlığın tərəqqisi üçün yeni imkanlar açdığı ifadə edilib.

Tərəflər beynəlxalq terrorizm, ekstremizmin bütün növləri, təcavüzkar separatizm və beynəlxalq təhlükəsizliyə, sabitliyə təhdid təşkil edən faktorları pisləyib, onlara qarşı mübarizədə beynəlxalq səylərin effektivliyinin artırılmasının zəruriliyini də xüsusi vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

# Əlahiddə Ümumqoşun Ordunun yeni səhra təlim mərkəzi istifadəyə verilib

*Martın 9-da Əlahiddə Ümumqoşun Orduda yeni təlim mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib. Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.*




Ali Məclisin sədri təlim mərkəzində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, təlim mərkəzi şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində bütün zəruri vasitələrlə təmin edilib. Ərazidə yeni yaşayış və xidmət binası inşa olunub, lazımi şərait yaradılıb. Binada rabitə qovşağı, ideoloji, yataq, yemək və texniki otaqlar istifadəyə verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim mərkəzində maneələr zolağı və təlimi idarəetmə məntəqəsi yaradılıb, yollar çəkilib, yaşıllıq zolağı salınıb. Səhra təlimlərinin keçirilməsi üçün ərazidə yeni düşərgə də qurulub. Düşərgədə şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün tədbirlər görülüb, yataq yerləri və məişət guşələri istifadəyə verilib. Yaradılan şərait istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verəcək.

Ali Məclisin sədri Muxtar Respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirib, xidmətin təşkili ilə bağlı tapşırıqlar verib.

# NATO-nun Kodifikasiya Sisteminə qoşulma ilə bağlı tanışlıq görüşü keçirilib



*Müdafiə Nazirliyində Azərbaycan Respublikasının NATO-nun Kodifikasiya Sisteminə (NKS) qoşulması ilə əlaqədar tanışlıq məqsədli görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ölkəmizdə səfərdə olan NATO Dəstək Agentliyinin mütəxəssisləri tərəfindən Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının nümayəndələrinə NKS haqqında ətraflı məlumat verilib.

Müdafiə Nazirliyinin və digər aidiyyəti dövlət qurumlarının nümayəndələrinin birgə iştirakı ilə keçirilən tədbirlərdə sistemin təqdimatı keçirilib, həmçinin onun faydaları, qoşulma prosedurları və digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Ümumordu iməciliyi keçiriləcək

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Əlahiddə Ümumqoşun Orduda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində martın 16-da ümumordu iməciliyi təşkil olunacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ərazilərdə təmizlik işlərinin görülməsi, ekoloji mühitin sağlamlaşdırılması və abadlaşdırılması məqsədilə təşkil olunacaq iməcilik zamanı hərbi şəhərciklərdə, eləcə də digər hərbi hissələr, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağac və gül kollarının əkilməsi, həmçinin yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

# Küveyt Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Xalid Əl-Uteybinin rəhbərlik etdiyi Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan nazir Elmar Məmmədyarov ikitərəfli siyasi münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirib, Azərbaycanın Küveyt vətəndaşları üçün sadələşdirilmiş viza rejimi tətbiq etdiyini bildirib.

Azərbaycana səfərdən məmnunluğunu bildirən Xalid Əl-Uteybi ikitərəfli münasibətlərin qədim tarixə əsaslandığını söyləyib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Küveytin Azərbaycanın münaqişənin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyini xüsusi vurğulayıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

AZƏRBAYCAN ORDUSU

# Ordu gəncləri böyük qüvvədir





(Əvvəli 1-ci səhifədə)

Diqqətə çatdırılıb ki, təqdim olunan kitabda xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan Ordusu və gənclər haqqında müdrik kəlamlara çevrilmiş fikirləri də əksini tapıb. Qeyd edilib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırdır və qadirdir", tarix elmləri doktoru, professor Həmzə Cəfərovun "Ulu öndər Heydər Əliyev Azərbaycanda dövlət gənclər siyasətinin banisidir" sərlövhəli məqalələri oxucuların böyük marağına səbəb olacaq. İstər Bakı Konqres Mərkəzində, istərsə də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş toplantılarda iştirak etməyənlər bu kitab vasitəsilə həmin möhtəşəm tədbirləri izləmək imkanı qazanacaqlar.

Müstəqil Azərbaycan Respublikası gənclərinin Birinci Forumunun (1996-cı il) iştirakçısı olmuş polkovnik-leytenant Loğman Xanlarov Ulu Öndərlə görüşlərini yada salaraq deyib: "Həmin gün bəlkə də mənim həyatımın ən xoş günü idi. Ulu Öndərin çıxışını diqqətlə dinləyir və öz gələcək fəaliyyət yolumuzu müəyyənləşdirirdik. Unudulmaz, əbədiyaşar Ali Baş Komandanımızın həmin görüşdə gənclərə müraciətlə dediyi sözlərin bu gün təqdim edilən kitab üçün epiqraf seçilməsi heç də təsadüfi deyil. O vaxt Ulu Öndərimiz demişdi: "Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır... Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!". Prezident İlham Əliyev isə toplantıda qətiyyətlə dedi ki, bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar: "Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır." Məhz bu gün təqdim edilən kitab ordu gənclərinin bu istiqamətdə tərbiyələndirilməsində, formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək ən yaxşı vasitədir."

Zabitlərdən Fəxrəddin Əhmədov, Taleh Xanməmmədov, gənc əsgərlərdən Elmin Musayev, Təbriz Həsənov, Ağca Məmmədov, Fəqan Səttarlı və başqaları çıxış edərək gənclərə göstərilən yüksək diqqət və qayğıya cavab olaraq üzərinə düşən hər bir vəzifənin öhdəsindən layiqincə gələcəklərinə söz veriblər.

Kitabın ilk nüsxələri hərbi hissənin kitabxanasına və xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya təqdim olunub. Onlar bu kitabları Novruz bayramı ərəfəsində ən gözəl hədiyyə kimi qiymətləndiriblər.

"Ordu gəncləri böyük qüvvədir" adlı kitabın təqdimatı ilə bağlı digər hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də cəbhəboyu rayonların Gənclər mərkəzlərində də tədbirlər keçiriləcək.

**AZƏRTAC**

# Bakıda NATO-nun təlim kursu keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2019-cu il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssumdakı Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "NATO-da təlimlərin əməliyyat səviyyəsində planlaşdırılması prosesi" mövzusunda təlim kursu keçirilib.

Kursun iştirakçılarına NATO-nun strukturu, hərbi tərəfdaşlıq və təlim prosesi barədə məlumat verilib.



# Novruz bayramınadək 1200 şəhidin 1928 vərəsəsinə birdəfəlik ödəmə veriləcək

Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası istiqamətində mühüm addım olaraq Novruz bayramına qədər 1200 şəhidin 1928 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi təmin ediləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən komissiyanın növbəti iclasında şəhid vərəsələrinə birdəfəlik ödəmə (11 min manat) verilməsi barədə qərar qəbul edilib. Onların siyahısı müvafiq ödənişin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, dövlət başçısının 2019-cu il 28 yanvar tarixli Fərmanı ilə birdəfəlik ödəmə verilən şəhid vərəsələrinin əhatə dairəsinə vərəsələri 11 min manatdan az sığorta ödənişi almış şəhid hərbi qulluqçuların və şəhid polislərin vərəsələri də daxil edilib. Beləliklə, vərəsələrinə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhidlərin sayı 12268-ə çatıb.

Qeyd edək ki, indiyədək 5491 şəhidin 7894 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi barədə qərar qəbul olunub.

# XİN-in rəsmisi ATƏT-in Minsk Qrupu həmsədrlərinin bəyanatını şərh edib

*Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında qarşıdakı görüşə dair bəyanatını şərh edib.*

AZƏRTAC xəbər verir ki, şərhdə ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycan Respublikası Prezidenti ilə Ermənistanın baş naziri arasında görüşünə dair təkliflərinin olduğu bildirilir.

Leyla Abdullayeva deyib: "Qeyd etmək istərdik ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir və substantiv danışıqlara hər zaman hazırdır. Azərbaycan tərəfi münaqişənin nəticəyə yönəlik və intensiv danışıqlar yolu ilə həlli istiqamətində həmsədrlərin səylərini dəstəkləyir. Məlum olduğu kimi, indiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında 3 dəfə, xarici işlər nazirləri arasında isə 4 dəfə görüş baş tutub.

Minsk qrupu həmsədrlərinin bu bəyanatı Ermənistana verilən bir siqnaldır, biz bunu alqışlayırıq. Prezident İlham Əliyev Minsk qrupu həmsədrlərini qəbul edərkən ölkəmizin mövqeyini onların diqqətinə çatdırmışdı. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir.

Həmsədrlərin bəyanatında, həmçinin münaqişənin həlli ilə əlaqədar atılmalı olan addımlar da qeyd edilir. Burada ilkin addımlardan biri kimi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafındakı ərazilərin işğaldan azad edilməsi və bu ərazilərdən zorla qovulmuş məcburi köçkünlərin geri qayıtması nəzərdə tutulur.

Dağlıq Qarabağın statusuna gəldikdə isə bu, Azərbaycanın ərazi bütövlüyünə xələl gətirmədən müzakirə mövzusu ola bilər. Azərbaycan bu xüsusda mövqeyini dəfələrlə açıqlayaraq bildirib ki, Dağlıq Qarabağın statusunu bu bölgənin hər iki icması - azərbaycanlı və erməni icması ölkəmizin ərazi bütövlüyü çərçivəsində müəyyən etməlidir. Məlum olduğu kimi, xalqların öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipini pozmamalıdır. Həmsədrlərin bəyanatında da Helsinki Yekun Aktı əsas tutulur. Bu sənəddə qeyd olunur ki, "xalqların öz müqəddəratını təyin etməsinə hər zaman BMT Nizamnaməsinin prinsip və məqsədləri, beynəlxalq hüququn müvafiq normaları, o cümlədən dövlətlərin ərazi bütövlüyünə uyğun olaraq hörmət edilir".

Münaqişənin həlli üzrə aparılan danışıqlar prosesində də maraqlı tərəflərə gəldikdə isə bu tərəflər Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarıdır və bu icmalar bərabərhüquqludurlar".

Vətənpərvərlik

# Gənclərimizin çağırışaqədərki hazırlığı

*Vətənpərvərlik tərbiyəsi Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi diqqət mərkəzindədir. Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri də vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasıdır.*



Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir. Bu baxımdan orta məktəblərdə tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni mühüm rol oynayır. Bu fənn öz məzmunu etibarı ilə şagirdləri Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatlandırır, hərbi nizamnamə qaydalarını mənimsədir, ordu həyatı ilə tanış edir, hərbi xidmətə fiziki və mənəvi-psixoloji cəhətdən hazırlayır. Şagirdlərdə orduda xidmətin müqəddəs borc və şərəf işi olmasına inam yaradaraq, vətənpərvərlik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətləri inkişaf etdirir.

Dünyanın inkişaf etmiş orduları ilə eyni sırada dayanan qüdrətli ordunun zabiti olaraq gənc nəslin ordu həyatına hazırlanması ilə daha yaxından tanış olmaq üçün Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar elmlər liseyində olduq.

Liseyin direktoru Bəkir Mustafayev bildirdi ki, millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtdir. "Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Ümummilli liderimiz Heydər Əliyev daim gənclərə qayğı göstərərək, onların bir fərd kimi yetişməsinə, milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndər nitqlərinin birində bu barədə deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Bu gün əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar...".

Ordu haqqında fikirlərini bölüşən məktəb direktoru vurğuladı ki, Azərbaycan Ordusu minlərlə gəncimizi öz sıralarında birləşdirən sarsılmaz qüvvədir. "Xalqımız öz ordusu ilə fəxr edir, yüksək məhəbbət hissi ilə sevir. Xalqın məhəbbəti, hörməti və qayğısı əsgərlərimizin qəlbini oxşayır, onları ruhlandırır. Məktəbimiz "Əsgərə xatirə kitabı" layihəsində iştirak edərək ön xətdə mərd oğullarımızı ziyarət edib. Şagirdlərimiz əsgərlərimizə davamlı olaraq məktublar yazırlar. Bunun həm şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə öz töhfələrini verəcəyini, həm də əsgərlərimizdə ruh yüksəkliyi yaradacağını düşünürük...".

Öyrənirəm ki, "Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris etmək Silahlı Qüvvələr və müharibə veteranı, ehtiyatda olan polkovnik-leytenant Aslan Ömərova həvalə olunub. Hərbi hazırlıq dərslərinin ehtiyata buraxılmış zabitlər tərəfindən keçirilməsi bu işdə əhəmiyyətli rol oynayır. Belə mütəxəssislər şagirdlərə hərbi vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılayırlar. Ehtiyatda olan zabit bildirdi ki, orta məktəblərdə tədris olunan hərbi hazırlıq fənlərinin böyük əhəmiyyəti var. "Hərbi hazırlıq dərslərində şagirdlərə silahlardan istifadə qaydaları öyrədilir. Eyni zamanda hərbi hazırlıq dərsləri şagirdlərin Vətənə bağlılığını artırır, torpaqlarımızı müdafiə etmək borcunun nə olduğunu dərk etməyə yardımçı olur. Gəncləri mənəvi-psixoloji baxımdan hərbi həyata hazırlamaq vacibdir. Bu fənn, həmçinin onların vətənpərvər ruhda böyüməsinə öz təsirini göstərir. Orduya çağırılan gənclərin müəyyən hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində vacib rol oynayır...

Ordumuzun ən güclülər sırasında olmasından qürur duyuruq. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya olan diqqət və qayğısı, davamlı olaraq ön cəbhəyə səfərləri, əsgərlərin yanında olmaları vətənpərvərlik baxımından çox dəyərli nümunə olmaqla yanaşı, gənclərimizdə hərbi xidmətə, orduya sevgi və hörmət hisslərini də tərbiyə edir".

Şagirdlərin hərbi vətənpərvərlik hisslərinin artırılmasında canlı ünsiyyət də mühüm rol oynayır. Onlar davamlı olaraq Azərbaycan Hərb Tarixi və Dövlət Sərhəd Xidməti Muzeylərində, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, hərbi hissələrdə olurlar. Bütün bunlar yeniyetmələrin formalaşmasında, Vətənə bağlılığının artırılmasında və torpağın müdafiəsində dayanmaq kimi hisslərin inkişaf etdirilməsində mühüm rol oynayır.

Məktəbin "Şahinlər" və "Cəsurlar" hərbi-idman yarışlarında yetərli uğurlarının olduğunu öyrəndim.

Gənclərin çağırışaqədərki hazırlıq sinfində bütün zəruri vəsaitlərin olmasından könül xoşluğu duydum. Mövzu "7.62 mm-lik AKM və 5.45 mm-lik AK74 avtomatları. Təyinatı, döyüş xassələri və quruluşu" idi. Dərsin gedişini izləyib şagirdlərin necə həvəsli olmalarının, bu fənnə sevgilərinin canlı şahidi oldum.

Daha sonra bir qrup şagirdlə söhbətləşirik. Müsahibim Xanlar Əzizov Qusar rayonunda yerləşən "N" hərbi hissəsində təşkil olunan hərbi vətənpərvərlik təmayüllü "Gənc Heydərçilər"in yay düşərgəsində olmasından söz açdı. "Bizlər Vətən qarşısındakı borcumuzu bu gün yaxşı oxumaqla, sabah isə orduda şərəflə xidmət etməklə verəcəyik."

"Vətənimiz, dövlətimiz bizdən hər sahədə hünər gözləyir. Mənim ən böyük arzum yaxın gələcəkdə səngərlərimizi sərhədlərimizə köçürəcək şanlı ordumuzun zabiti kimi Vətən keşiyində durmaqdır", - deyə Ceyhun Abdulrəhmanov fikirlərini bizimlə bölüşdü.

Nuri İsgəndər dedi ki, hər bir perspektivli Azərbaycan gəncinin yetişməsi üçün ölkəmizdə dövlət tərəfindən lazımi şərait yaradılıb.

Uşaq yaşlarından zabit olan atasının hərbi formasını geyinib, güzgü qarşısında özünə baxmaqdan doymayan Emil Babazadə qürur və fəxrlə gələcəkdə hərbçi olub Vətəninə xidmət edəcəyini dilə gətirdi.

Ən böyük arzusu hərbi mundir geyinmək olan İlkin Cəfərzadə qeyd etdi ki, dövlətimizin bizdən gözləntiləri böyükdür. "Bizlər də bu etimadı doğruldacağıq. Vətəninə, xalqına bağlı olan kəs bir an belə olsun unutmamalıdır ki, əzəli torpaqlarımız düşmən işğalı altındadır".

Şagirdlərin gələcək həyatlarında Vətəninə, millətinə layiqli övlad olmaq istəkləri qürurvericidir. Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyüyən gənclərimizin sabahımızın etibarlı gələcəyi olacağına inanırıq.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Naxçıvan Qarnizonu qoşunlarında növbəti mütəxəssis snayper hazırlığı kursu uğurla başa çatıb





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə əvvəlcə Türkiyə və Azərbaycan Respublikalarının dövlət himnləri səsləndirilib.

Məzunlar adından çıxış edən kurs birincisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Ramin Abdullayev bildirib ki, real döyüş əməliyyatlarına yaxın təşkil edilmiş məşğələlərdə qazandığımız təcrübələr nəticəsində ən çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirməyə hazırıq.

Türkiyə Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu piyada qədəmli baş çavuş Murad Bayraqdar kursda qazanılan nailiyyətlərdən danışıb. Bildirilib ki, kurs zamanı gecə və gündüz şəraitində snayper tüfənglərindən müxtəlif məsafələrdə yerləşən hədəflərə ən çətin atışlar icra edilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti Tehran Mənsimov kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək bildirib ki, hər iki qardaş ölkənin hərbi qulluqçularının kurs zamanı keçirilən məşğələlərdə vətənpərvərlik hissləri ilə peşəkarlıq nümayiş etdirməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunun əyani göstəricisidir.

Türkiyə Respublikasının Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi mütəxəssis snayper hazırlığı kursunda şəxsi heyətə kəskin relyef və iqlim şəraitində fəaliyyət göstərmək üçün dözümlü, təmkinli və yüksək fiziki hazırlığa malik olmaq kimi xüsusiyyətlər aşılanıb.

Çıxışların ardından kursu daha yüksək qiymətlərlə birinci, ikinci və üçüncü yerdə başa vuran məzunlara sertifikat, döş nişanları və qiymətli hədiyyələr, bütün məzunlara isə sertifikatlar və döş nişanları təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub.

*Təlim*

# "Amalımız torpaqlarımızın azadlığıdır"

***Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin döyüş təcrübəsinin artırılması, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji baxımdan təkmilləşdirilməsi başlıca vəzifələrdən biridir. Məqsəd dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasının təminatçısı rolunda çıxış edən ordunun şəxsi heyətinin döyüş və vətənpərvərlik ruhunun daima yüksək olmasına nail olmaqdır. Əsgərlərin aparıcı qüvvə olaraq orduda xidmətin əsas yükünü öz üzərində daşımalı olacağını nəzərə alanda, sözügedən məsələyə son dərəcə məsuliyyətlə yanaşmaq reallığı ortaya çıxır. Azərbaycan əsgərinin əsas xəyalı, amalı torpaqlarımızın işğaldan azadlığıdı. Vətənə olan sevgisini, məhəbbətini, bağlılığını həyatı bahasına ödəməyə hazır olan Azəbaycan əsgəri Ağdamda, Şuşada, Xankəndidə, Kəlbəcərdə... bayrağımızı dalğalandırmaq intizarındadır.***

Bu mənada Azərbaycan Ordusunda daimi olaraq qarşıya qoyulan ən əsas məsələlərdən biri də döyüş qabiliyyətinin artırılmasıdır. Mütəmadi olaraq keçirilən dərslər, hərbi təlimlər ordumuzun müasir döyüş vərdişlərinin artırılmasına xidmət edən vasitələrdən biridir. "N" hərbi hissəsinin artilleriyaçılarının fərdi hazırlıq dövründə təşkil edilən dərs prosesində gördüklərimiz də deməyə əsas verir ki, ordumuzda döyüş hazırlığına xüsusi diqqət yetirilir.



Kapitan Valeh Hacıyev bildirdi ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır: "Bir zabit kimi məni sevindirən odur ki, ordumuzun adı dünyanın güclü orduları sırasında çəkilir. Mən də bu gün güclü bir ordunun zabitiyəm. Güclü bir ordunun hərbi qulluqçusu olmaq şərəfdir. Bizim hərbi qulluqçu kimi borcumuz rəhbərlik tərəfindən qarşımıza qoyulan tapşırıqları yerinə yetirərək etimadı doğrultmaqdır. Torpaqlarımızı işğaldan azad etməkdir. Keçirilən bu dərslərin də əsas məqsədi şəxsi heyəti döyüş vəziyyətinə tam hazırlamaqdır və şəxsi heyətimiz döyüşə hazırdır".

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaqla yanaşı, şəxsi heyətlə işləyən hərbi qulluqçu, bir manqa komandiri kimi də üzərimizə böyük məsuliyyət düşür", - deyə kiçik çavuş Fuad Hüseynov qeyd etdi. - Artilleriyaçı olmaq böyük məsuliyyət tələb edir. Çünki Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi böyük şəxsiyyətlərin davamçılarının məsuliyyətsiz olmağa haqqı çatmır. Valideynlərimizdən, müəllimlərimizdən, oxuduğumuz kitablardan əxz etdiyimiz və genlə gələn vətənpərvərlik hissi hərbi formanı geyinən, gecəsini gündüzünə qatan hər bir hərbi qulluqçunun içində var. Bu hiss də bizi məsuliyyətli olmağa səsləyir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elman Abbasov isə bildirdi ki, keçirilən dərslərin və təlimlərin şəxsi heyətin formalaşmasında rolu böyükdür: "Xidmət dövrü ərzində əsgərlər atışlı və atışsız təlimlərdə iştirak edirlər. İldə bir neçə dəfə atışlı təlimlər həyata keçirilir. Atışsız təlimlərin son nöqtəsini biz atışlı təlimlə real təlim mərkəzlərində həyata keçiririk. Gənc əsgərlər xidmətə gələndə biz onları atışsız təlimlər çərçivəsində öyrədir, təcrübəmizi layiqincə onlara aşılayırıq. Bizlər bu proses çərçivəsində həm öyrənir, həm də öyrədirik. Sonda qazanan Azərbaycan Ordusu və onun şəxsi heyəti olur.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Raqif Nəbiyev isə qeyd etdi ki, Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyən Azərbaycan əsgəri bir göz qırpımında tarixi torpaqlarımıza qanadlanmağa, düşmənin ayaqlarını o torpaqlardan birdəfəlik kəsməyə hazırdır.

Gördüklərimizdən bir inam hasil olur - məşqə cəlb olunan şəxsi heyət bir yumruq kimi mübarizə aparmağa, öhdəsinə düşən tapşırığı məsuliyyətlə, can-başla və vaxtında yerinə yetirməyə, ümumi qələbə üçün canından-qanından keçməyə belə qadirdir. O günün uzaqda olmadığına inanırıq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## "Küveyt Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir"

Martın 11-də Milli Məclisin Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Hüseynbala Mirələmov ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərindən danışıb, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini deyib.

Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid Əl-Uteybi deyib ki, Azərbaycan və Küveyt dostluğu tarixi, dərin mədəni köklərə söykənir. İki ölkə arasında iqtisadi, siyasi, mədəni sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Xalid Əl-Uteybi ticari əlaqələrin daha da genişləndirilməsinin zəruriliyini qeyd edib.

Xalid Əl-Uteybi Azərbaycanın hər zaman beynəlxalq təşkilatlar çərçivəsində Küveytin mövqeyini müdafiə etdiyini bildirərək vurğulayıb ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır.

Azərbaycanın həyata keçirdiyi beynəlxalq tədbirlərin onun dünyadakı nüfuzunu daha da artırdığını bildirən Xalid Əl-Uteybi bu uğurlarının dost Küveyt tərəfindən sevinclə qarşılandığını ifadə edib.

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verib. Bildirib ki, münaqişə nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilib, bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Tabor komandirlərinin hazırlıq səviyyəsi yoxlanılıb

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun qoşun növ və qismlərində, birlik və birləşmələrində tabor komandirlərinin hazırlıq səviyyəsi yoxlanılıb.***



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən təlim mərkəzlərində, poliqonlarda keçirilən yoxlamalar zamanı zabitlərin fərdi keyfiyyətləri, müasir ümumqoşun döyüşünün idarə edilməsi üzrə təcrübələri, praktiki vərdişləri, taborun silahlanmasında olan silah və hərbi texnikanın döyüş tətbiqi qaydaları, o cümlədən istismarı üzrə bilikləri də qiymətləndirilib.



Zabitlərin nəzəri biliklərinin təyin edilməsi məqsədilə rəhbər sənədlərin öyrənilməsi üzrə testlər keçirilib, atış, taktiki-xüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbul lar qəbul edilib.

# Ön cəbhədə hərbçilərimizlə görüş



*Mədəniyyət naziri Əbülfəs Qarayev martın 11-də Azərbaycan Ordusu hissələrinin Cocuq Mərcanlı kəndində yerləşən döyüş postuna baş çəkib.*

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, general-mayor Mayis Bərxudarov hərbçilərimizin yüksək döyüş hazırlığı haqqında məlumat verib. Vurğulanıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordu hissələrimizin təchizatı ilə bağlı bütün məsələlər yüksək səviyyədə həll olunur, hərbçilərimiz işğal altındakı torpaqları azad etmək üçün veriləcək əmri yerinə yetirməyə hazırdır.

Nazir Əbülfəs Qarayev ön cəbhədə, düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizi salamlayaraq bu görüşdən böyük məmnunluq duyduğunu deyib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr, o cümlədən ordu quruculuğu uğurla inkişaf edir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsinə, Silahlı Qüvvələrimizin maddi-texniki təchizatına daim xüsusi diqqət göstərilir. Bu diqqət və qayğı sayəsində Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malikdir. Qəhrəman hərbçilərimiz 2016-cı ilin aprelində düşmənin ön cəbhədəki təxribatına layiqincə cavab verməklə bunu bir daha nümayiş etdirdilər. Məhz həmin zəfər sayəsində işğal altındakı torpaqlarımızın bir hissəsi, Lələtəpə yüksəkliyi, digər strateji yüksəkliklər düşməndən azad edildi, Cocuq Mərcanlı kəndinin sakinləri doğma yurdlarına qayıtdı. Yenidən qurulan Cocuq Mərcanlı Qarabağ müharibəsində gələcək zəfərlərimizin müjdəsidir.

Nazir qeyd edib ki, bu gün biz bütün sahələrdə, bütün cəbhələrdə düşmənlə mübarizə aparırıq. İşğalçı Ermənistan təkcə torpaqlarımızı deyil, tariximizi, mədəniyyətimizi, musiqimizi, milli mətbəximizi də hədəf alıb. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Bu gün mədəniyyət sahəsində çalışan insanlarımız da düşmənin irsimizə, tariximizə qarşı bəd əməllərinə, məkrinə qarşı mübarizə aparırlar. Tarixi-mədəni irsimizi, mədəni dəyərlərimizi düşməndən qorumaq keçmişimizə və gələcəyimizə sahib çıxmaq deməkdir.

Nazir hərbçilərimizə yeni zəfərlər arzulayaraq Ali Baş Komandanın rəhbərliyi ilə, əsgər və zabitlərimizin əzmi, qəhrəmanlığı sayəsində bütün torpaqlarımızın düşməndən azad olunacağına inamını ifadə edib.

Sonda hərbçilərə kitablar, film izləmək üçün ləvazimatlar, milli filmlərin diskləri hədiyyə olunub.

Hərbi hissənin komandanlığı adından nazir Əbülfəs Qarayevə xatirə hədiyyəsi təqdim edilib.

Qeyd edək ki, Mədəniyyət naziri Əbülfəs Qarayev martın 11-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Cəbrayıl, Füzuli, İmişli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşların qəbulunu da keçirib.

Nazir mətbuata açıqlamasında Cocuq Mərcanlı kəndində keçirilən vətəndaş qəbulunun, eləcə də ön cəbhədəki hərbçilərimizlə görüşün əhəmiyyətini vurğulayıb.



Yerlərdə vətəndaşlarla keçirilən bu cür görüşlərin mədəniyyət sahəsinin inkişaf etdirilməsində önəmindən bəhs edən nazir bildirib ki, budəfəki görüş xüsusi əhəmiyyət daşıyır. Çünki bu görüş 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusunun zəfərindən sonra yenidən qurulan Cocuq Mərcanlı kəndində keçirilirdi. Bu kəndin sakinləri doğma torpağına qayıdıb, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində kənd yenidən qurulub. Bizim fədakar vətəndaşlarımız bu gün öz doğma torpağında, təhlükəsiz şəraitdə yaşayırlar.

Nazir vurğulayıb ki, qəbulda sakinlərin müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib: "Mədəniyyət sahəsində işin təkmilləşdirilməsi, mədəni irs abidələrinin qorunması və digər məsələlərlə bağlı müraciətlər oldu. Burada qaldırılan bütün məsələlər öz həllini tapacaq".

Diqqətə çatdırılıb ki, kənddə müxtəlif tədbirlərin təşkil olunmasında mədəniyyət işçiləri də daha yaxından iştirak edirlər. Martın 12-də Cocuq Mərcanlıda Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri əsgərlərlə görüşüb

*Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, birgə tədbirlər planına uyğun olaraq komitə nümayəndələri cəbhə bölgəsində yerləşən hərbi hissələrdə hərbi qulluqçularla görüşüb.

Görüşdə gənclərin zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu mövzusunda söhbətlər aparılıb və "Şəhadət" filminin nümayişi olub.

# Əlahiddə Ümumqoşun Orduda arxa təminatı avtomobil texnika və qurğularına baxış müsabiqəsi keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Orduda səhra şəraitində əsgərlərin yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularına baxış müsabiqəsi keçirilərək qaliblər müəyyənləşdirilib.

Hərbi hissə və bölmələr baxış müsabiqəsində səyyar soyuducular, səyyar çörək zavodları, su çənləri, səhra mətbəxləri və digər ləvazimatlarla iştirak ediblər.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edənlərin müxtəlif bəhanələrlə xidmətdən yayınma və mülki şəxslərə qarşı cinayətlər törətmə halları artıb.

Yerevanda müalicə olunan leytenant Manuk Mirzoyan hərbi hospitaldan qaçmaqdan əlavə həm də mülki vətəndaşların əmlakını oğurlayıb.

Hadisə barədə polis bölməsinin növbətçisi R.Zolayan, leytenantın komandiri polkovnik A.Beqlaryana məlumat verib. Leytenantın törətdiyi cinayət hadisələri araşdırılarkən o da məlum olub ki, zabit xəstə deyil, xidmətdən yayınmaq məqsədilə rüşvət verərək Yerevana hospitala göndərilməsinə nail olub.

Faktla bağlı açılan cinayət işinin istintaqı Ağdərə hərbi polisinə həvalə edilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələri hərbçilərinin acınacaqlı vəziyyətdə xidmət etmələri ilə yanaşı, hər hansı bir xəstəliyə düçar olduqda müalicə məntəqələrinə göndərilmələri də onlar üçün bir bəlaya çevrilib. Belə ki, xəstələnən əsgərlərin müalicəyə göndərilməsinə nail olmaq üçün valideynlər dəridən-qabıqdan çıxırlar. Rüşvət vermədikdə, şikayət etmədikdə, hansısa bir vəzifəli şəxs tərəfindən tapşırılmadıqda xəstə hərbi qulluqçunun müalicəyə göndərilməsi müşkül məsələdir.

Bu günlərdə möhkəm soyuqlayan və 39 dərəcə yüksək hərarətlə müalicəyə göndərilməyən Ardak Harutyan, eləcə də həkim tərəfindən vəziyyəti "kafi" qiymətləndirilən Movses Balayan adlı hərbçinin valideynləri övladlarının hospitala göndərilməsi üçün bütün imkanlarını səfərbər ediblər. Uzun süründürməçilikdən sonra yüksək vəzifəli bir məmurun "xahişi" ilə hər iki hərbi qulluqçu nəhayət ki, müalicəyə göndərilib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# “Milli xörəklərimizə üstünlük veririk”

*Ölkəmizin son illərdə dinamik inkişafı nəticəsində günün tələbləri səviyyəsində qurulan Azərbaycan Ordusu həm müasir silah və sursata, həm peşəkar və yüksək döyüş ruhlu şəxsi heyətə, həm də yüksək maddi-texniki təminata malikdir.*



Hər dəfə döyüş bölgəsində yerləşən hərbi hissələrimizin maddi-texniki təminatının yüksək səviyyədə olduğunu görəndə düşünürsən ki, bütün bunlar son illər orduda aparılan irimiqyaslı islahatların bəhrəsidir. Eyni zamanda ordumuzda yeni hərbi şəhərciklərin, əsgəri məişət komplekslərinin tikilib istifadəyə verilməsi, ölkəmizin müdafiə qüdrətinin daha da gücləndirilməsi dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğının təzahürüdür.

Cəbhə xəttindəki "N" hərbi hissəsində də böyük quruculuq və abadlıq işləri aparılıb. Ərazidə geniş və işıqlı, müasir hərbi şəhərcik salınıb. Şəxsi heyətin təminatı üçün bütün zəruri tədbirlər həyata keçirilib. Hərbi hissənin bir çox məişət-təsərrüfat işlərinə mülki şəxslər cəlb ediliblər. Qeyd etmək lazımdır ki, əsgərin xidmət dövründə keyfiyyətli qida ilə təminatı ordumuzda önəm kəsb edən amillərdəndir. Yeməkxanaya daxil olanda şəxsi heyət nahar yeməyinə yenicə başlamışdı. Dadlı, təamlı milli xörəklərin xoş ətri ətrafa yayılmışdı.

Zal xidmətçiləri təmizlik işləri ilə məşğul idilər. Onlardan Afət Əsgərova, İlhamə Zalova, Sevil Hüseynova, Esmira Şirinova, Solmaz Əliyeva və Gözəl Məmmədova torpaqlarımızın keşiyində dayanan əsgərlərimizə öz doğma övladları kimi qayğı göstərdiklərini və çox zaman da yeməkxanada onların zövqündə olan xörəklərin hazırlandığını bildirdilər. Yeməkxana növbətçisi gizir Gülbala Cəlilov isə bildirdi ki, bu gün şəxsi heyət üçün borş, küftə, plov, toyuq qızartması, salatlardan isə çuğundur salatı hazırlanıb. "Qarşıdan xalqımızın əziz bayramı Novruz gəlir. Həmin gün əsgərlərimizə müxtəlif çeşiddə zəngin milli mətbəximizdən xörəklər bişiriləcək, şirniyyatlar hazırlanacaq. Ümumiyyətlə, bütün bayramlarda şəxsi heyətə müxtəlif çeşiddə xörəklər bişirilir. Xidmətimə məsuliyyətlə yanaşaraq, bütün diqqətimi şəxsi heyətin keyfiyyətli qidalanmasına yönəltmişəm".

Yeməkxananın baş aşpazı Zabitə Kərimova söhbətində əsgərlərimizə, zabitlərimizə dadlı, təamlı xörəklər bişirdiyini və milli mətbəximizə üstünlük verdiyini, şəxsi heyətə tez-tez plov, yarpaq dolması hazırladığını dedi. "Əsasən çalışırıq ki, bişirdiyimiz hər bir xörək əsgərlərimizin ürəyincə olsun. Gördüyünüz kimi, yeməkxanamız geniş, işıqlı müasir yeməkxanadır. Sağ olsun, Prezidentimiz. Ordumuza, əsgərlərimizə, zabitlərimizə böyük diqqət göstərir, qayğısını onlardan əsirgəmir".

...Tezliklə erməni işğalında olan torpaqlarımız da azad olunacaq və orada belə müasir hərbi şəhərciklər salınacaq. O zaman aşpaz xanımlarımız da əsgərlərimizin xidmət göstərib milli xörəklər bişirəcəklər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**R.ƏMRAHOVUNDUR**

# İdman

## Taekvondoçularımız beynəlxalq turnirdə səkkiz medal qazanıb



Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət yığma komandası Niderlandın Eyndhoven şəhərində təşkil olunan "Dutch Open" beynəlxalq turnirində uğurlu çıxış edib.

Yarışda milli komandamızın idmançıları səkkiz medala sahib oldular.

Sayca qırx altıncı olan "G1" kateqoriyalı turnirdə mübarizəyə qoşulan Cavad Ağayev (63 kq) və Fəridə Əzizova (67 kq) bütün rəqiblərinə qalib gələrək yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxdılar.

Taekvondoçularımızdan Qaşım Maqomedov (58 kq) və Radik İsayev (87 kq-dan yuxarı) isə yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar.

Digər təmsilçilərimiz Bəhruz Quluzadə (54 kq), Məhəmməd Məmmədov (68 kq), Ramin Əzizov və Payam Qobadi Oğaz (hər ikisi 87 kq) yarışı yarımfinal mərhələsində başa vuraraq bürünc medalla kifayətləniblər.

Komandamızın üzvləri Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev və baş məşqçilər Reza Mehmandoust, eləcə də Elnur Amanovun rəhbərliyi ilə martın 16-da Belçikanın Lommel şəhərində keçiriləcək "Belgian Open" turnirində də qüvvələrini sınayacaqlar.

## Las-Veqasda keçirilən dünya birinciliyində Ömər Cavadov bürünc medal qazanıb



ABŞ-ın Las-Veqas şəhərində yeniyetmə ağır atletlər arasında dünya birinciliyi start götürüb.

50 ölkənin 200-dən çox atletinin mübarizə apardığı yarışda Azərbaycan milli komandasının üzvləri də iştirak edirlər. Bu gün onlardan ilk olaraq körpücük üzərinə Ömər Cavadov çıxıb. O, 55 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb.

Atletimiz birdən qaldırma hərəkətində hər üç yanaşmasını uğurla yerinə yetirərək 96 kiloqram nəticə göstərib. O, bu hərəkətdə dünya birinciliyinin bürünc medalına sahib çıxıb. Bu, Azərbaycan yeniyetmələrinin dünya birinciliklərində 7 illik fasilədən sonra əldə etdiyi ilk medaldır. Sonuncu dəfə medal 2012-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən yarışda +94 kiloqram çəki dərəcəsində Azər Məmmədli tərəfindən əldə edilmişdi.

Ömər təkanla qaldırma hərəkətində nisbətən zəif çıxış edərək 115 kiloqramı başı üzərinə qaldırıb. O, bu hərəkətdə 9-cu yeri tutub.

Toplam 211 kiloqram (96+115) nəticə göstərən Cavadov yekun sıralamada 4-cü pillədə qərarlaşıb.

## Sərbəst güləşçilərimiz Yakutskda iki medal qazanıblar



Yakutskda gənc sərbəst güləşçilər arasında Roman Dmitriev Memorialı keçirilib.

Ənənəvi yarışda ölkəmizi gənclərdən ibarət yığmamızın məşqçisi Nazim Əlicanovun rəhbərliyi altında 5 idmançı təmsil edib. Onlardan Asxab Həmzətov (92 kq) gümüş, Abubakr Abakarov (79 kq) isə bürünc medal qazanıblar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## Monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 12-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Gennadi Petrika keçiriblər.

*Hərbi texnikalar, silahlar*

# UR-77 “Meteorit” minatəmizləmə qurğusu



UR-77 "Meteorit" sovet istehsallı reaktiv minatəmizləmə qurğusudur. Qurğu özüyeriyən 2S1 "Qvozdika" haubitsasının bazası əsasında hazırlanıb və döyüşlər zamanı tank əleyhinə minalanmış sahələrdən keçməyə qadirdir. Heyəti komandir-operator və sürücü-mexanikdən ibarətdir. Əsas silah kimi mina təchizatından istifadə edilir. Qurğu iki təchizat daşımağa qadirdir. Onun bir təchizatı 90x6 düzbucaqlı minalanmış sahəni təmizləyir. Minalardan sahəni təmizləyərkən və təchiz edilməsi zamanı onun heyəti maşının içərisində qalır. Maşının minalardan tam təmizlənmə tsikli 5-6 dəqiqədir. UR-77 "Meteorit" reaktiv qurğusunun çəkisi 15,5 tondur. Gövdəsinin uzunluğu 7860 mm, eni 2850 mm, hündürlüyü 2535 mm, klirensi 400 mm təşkil edir. Maşının zirehi gülləyə davamlıdır. Atəş uzaqlığı 0,5 kilometrə qədərdir. Onun mühərrikinin növü YM3-238H-dir və 300 at gücündədir. Şosse yolda sürəti saatda 60-61,5 kilometr təşkil edir. Kəsişmə yerlərdə isə torpaqda 30, üzmədə isə saatda 4-6 kilometrə qədərdir. Şosse yolda ehtiyat sürəti 500 kilometr, kəsişmə yerlərdə isə ehtiyat sürəti 250 kilometrdir. Asılqanının növü torsiondur. UR-77 "Meteorit" reaktiv minatəmizləmə qurğusu müxtəlif manevrləri dəf etməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Leytenant Əhmədzadə Həsən Alik oğluna 2018-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 245
Nüsxə 3950